**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın**

**1 saylı protokolu**

**Daşkəsən şəhəri** **29 yanvar 2024-cü il**

**İştirak edirdilər:**

**İctimai şuranın üzvləri:**

1. Həsənov Samir Fidail oğlu (İctimai Şuranın sədri);
2. Əliyev Emin Etibar oğlu (İctimai Şuranın sədr müavini);
3. Zeynalova Aygül Azad qızı (İctimai Şuranın katibi);
4. Cəfərova Gülnar Abbasqulu qızı;
5. Xəlilov Vüqar Müslüm oğlu.

**Dəvət olunanlar:**

"Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri Vasif Hüseynov; Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri Mətanət Abdullayeva; Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının sədri Bakir Qurbanov; Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Daşkəsən rayon şöbəsinin sədri Seymur Tağıyev.

**İclasın sədri: S. Həsənov**
**İclasın katibi: A. Zeynalova**

**Gündəlik üzrə məsələ:**

Daşkəsən rayonunda daşınmaz əmlakın icbari sığortasına dair əhalinin maarifləndirilməsində müşahidə olunan bəzi məsələlərin həlli barədə.

**Gündəlik səsə qoyuldu və yekdilliklə qəbul olundu.**
Lehinə: 5
Əleyhinə: 0
Bitərəf: 0

**Eşidildi:**

İclasa sədrlik edən İctimai Şuranın sədri Samir Həsənov iclası açıqdan sona katibdən kompüter arxasına keçərək protokol üçün qeydlər aparmasını xahiş elədi. Gündəlikdəki məsələyə keçməzdən əvvəl Samir Həsənov bildirdi ki, rayonun qeyri-hökumət təşkilatlarını və vətəndaş cəmiyyətinin digər institutlarını təmsil edən RİH yanında İctimai Şura 2023-cü il ərzində 4 ümumi yığıncaq keçirmişdir. Yığıncaqlarda ilk növbədə sakinləri narahat edən sosial-iqtisadi məsələlər, qaldırılan məsələlərin həll olunması prosesi, ümumiyyətlə, vətəndaş-məmur münasibətlərinin real vəziyyəti müzakirə olunmuşdur. Şura üzvləri vətəndaşlarla görüşlər zamanı İctimai Şuranın hüquq və vəzifələri barədə maarifləndirici görüşlər keçirmiş, insanları narahat edən məsələlərlə bağlı dinləmələr təşkil etmiş, onların arzu və təkliflərini öyrənmişlər. Qaldırılan məsələlər barədə dövlət qurumlarına, xüsusən, Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı aparatına məlumat verilmiş və məsələlərin müsbət həllinə nail olunmasına köməklik göstərilmişdir.

Gündəlikdəki məsələ barəsində geniş məruzə ilə çıxış edən Şura sədri vurğuladı ki, yüksək dağlıq coğrafi relyefə malik Daşkəsən rayonunda intensiv leysan yağışları, dolu, sel və

su basması, habelə güclü külək əsməsi – qasırğa tez-tez təbii fəlakətlərə səbəb olur. Nəticədə sakinlərin yaşayış evlərinə, əmlaklarına ciddi zərərlər dəyir, əhəmiyyətli maliyyə itkiləri yaranır. Rayon ərazisində baş vermiş elə təbii fəlakət hadisələri vardır ki, onlar hər il təkrarlanmasa da, yaratdığı zərərlərin və onların fəsadlarının aradan qaldırılması uzun müddət tələb edir.

Daşınmaz əmlakın təbii fəlakət, yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununu ilə tənzimlənir. Dəymiş ziyanların aradan qaldırılması funksiyasını iqtisadi qurum kimi sığorta təşkilatları həyata keçirir. Hər bir dövlətin sığorta sahəsini inkişaf etdirməkdə məqsədi əhalini, iş adamlarını xoşagəlməz hallar nəticəsində meydana gələn zərərlərdən müdafiəsini gücləndirməkdir. Çünki dövlətin başlıca vəzifəsi əhalinin rifahını qorumaq, onu yüksəltməkdir.

Möhtərəm Prezident cənab İlham Əliyev həmişə qeyd etdiyi kimi, Azərbaycanda sosial dövlət modeli formalaşıb. Daşınmaz əmlakın icbari sığortası ölkəmizdə formalaşmış sosial dövlət modelinin xarakterinə uyğundur. Az əvvəl səsləndirdiyimiz faktlardan göründüyü kimi rayonumuzda da əhəmiyyətli miqyasda təbii fəlakətlər, yanğın və digər hadisələr baş verir. Bunlar qaçılmazdır və əhalimizin rifahı baxımından ciddi fəsadlar, zərərlər yaradır. Bu zərərlərin miqyası onunla üzləşən əhali, o cümlədən iş adamları üçün ciddi maliyyə həcminə malikdir. Belə hadisələrdən irəli gələn maliyyə itkiləri ilə üzləşən vətəndaşlarımız ilk növbədə yardım üçün dövlətə, onun qurumlarına müraciət edir. Təbii ki, dövlət də özünün sosial dövlət mahiyyətinə sadiq qalaraq vətəndaşına biganə qalmır. Unutmamalıyıq ki, dövlət büdcəsinin vəsaitləri əsasən fiziki və hüquqi şəxslərin vergi ödənişləri hesabına formalaşır. Deməli, maliyyə yükü yenidən əhaliyə və biznesin üzərinə qayıtmış olur. Belə olan halda xoşagəlməz hadisələr nəticəsində yaranan zərərlər riskinin sığorta sektoruna ötürülməsi həm əhalinin, həm biznesin, həm də dövlətin maliyyə yükünün azaldılmasına imkan verir.

Daşınmaz əmlakın icbari sığortası mexanizmi vasitəsilə dövlət bir tərəfdən öz vətəndaşını və iş adamını təbii fəlakətlər, yanğın və digər hadisələrdən yaranan ciddi maliyyə itkilərindən müdafiə sistemini gücləndirir, digər tərəfdən isə təbii fəlakətlər zamanı dövlətin maliyyə yükünü azaldır, vergi daxilolmalarından formalaşan dövlət büdcəsini gözlənilməz, planlaşdırılmayan xərclərlə qarşı-qarşıya qoymur. Ödənilən vergilər ictimai və dövlət xidmətlərinin fasiləsizliyinə, sosial inkişaf proqramlarının stabil olaraq maliyyələşdirilməsinə yönəlmiş olur.

Bununla belə, müşahidələr göstərir ki, rayonumuzda daşınmaz əmlakın icbari sığortası tam kütləvi hal almayıb. Vətəndaşlar əksər hallarda daşınmaz əmlaklarını (mənzillərini) sığorta etdirməkdən yayınır. Sakinlərin çoxu daşınmaz əmlakın icbari sığortası barədə məlumatlı deyil və bu növ sığortaya pul verməyə həvəs göstərmir. Baxmayaraq ki, icbari sığorta müqaviləsi bağlamamağa görə cərimə də nəzərdə tutulub, amma cərimənin tətbiqetmə mexanizminin olmaması, müqavilənin elektronlaşmaması, elektron bazada buna nəzarət imkanlarının məhdud olması və digər səbəblərdən bu istiqamətdə cərimələr tətbiq edilmir. İcbari sığortadan xəbəri olan əhali belə cərimə olmadığından əmlaklarını sığortalamaq istəmirlər. Azərbaycan Respublikasının "Mənzil Məcəlləsi"nin 28.1-ci maddəsinə əsasən, mülkiyyətçi ona məxsus mənzilin (yaşayış binasının) qəza vəziyyətinə düşməməsi üçün onu vaxtlı-vaxtında əsaslı təmir etmək, mənzil (yaşayış binası) təbii fəlakət və ya mülkiyyətçidən asılı olmayan digər səbəblərdən qəza vəziyyətinə düşdükdə isə onu mümkün olan ən qısa müddət ərzində təmir və bərpa etmək vəzifəsini daşıyır. Eyni zamanda, mənzillərin və fərdi yaşayış evlərinin mülkiyyətçilər tərəfindən vaxtında sığorta edilməsi baş verə biləcək qeyri-adi hadisələr zamanı qaçılmaz zərərlərin qarşısının alınmasında onlar üçün faydalıdır və belə hadisələr baş verdikdə lüzumsuz narazılıqlar, sosial gərginliklər yaranmaz. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2014-cü il tarixli Fərmanına əsasən "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə müvafiq dəyişikliklər edilmişdir və "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mənzillərin icbari qaydada sığortalanmasına nəzarət yerli icra hakimiyyətlərinə həvalə olunmuşdur. Odur ki, bu

istiqamətdə rayonda görülmüş çoxsaylı təqdirəlayiq işlərə baxmayaraq, ilin əvvəlini nəzərə almaqla RİHB-nin inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri tərəfindən bu istiqamətdə işlərin günün tələbləri səviyyəsində qurulmasını daha da gücləndirmələrini tövsiyə edirik.

**Çıxışlar:**

1. İctimai Şuranın sədr müavini Emin Əliyev çıxışında bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qəbul edilən sosial və iqtisadi layihələr Daşkəsən rayonunda da uğurla həyata keçirilir, insanların rifahı daha da yaxşılaşır. Aparılan struktur islahatları nəticəsində məmur-vətəndaş münasibətləri indi daha çox məmnunluq yaradır. Bununla belə, sosial inkişafdan doğan və vətəndaşları narahat edən məsələlər olsa da, onlar yerlərdə yüksək həssaslıqla müsbət həllini tapır.

Emin Əliyev gündəlikdəki məsələnin aktuallığını sakinlərin çoxsaylı müraciətlərini nəzərə almaqla qeyd edərək mövcud qanunvericiliyin tələbləri əsasında müvafiq işlərin görülməsinin vacibliyini diqqətə çatdırdı.

2. İctimai Şuranın üzvü Gülnar Cəfərova isə əhalinin "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri ilə rayon əhalisinin mütəmadi məlumatlandırılmasının vacibliyini səsləndirdi.

**Gündəlikdəki məsələ müzakirə edildikdən sonra səsə qoyuldu və yekdilliklə qəbul olundu.**

Lehinə: 5
Əleyhinə: 0
Bitərəf: 0

**Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şura qərara alır:**

**1.** Daşkəsən rayonunda daşınmaz əmlakın icbari sığortasına dair əhalinin maariflendirilməsində müşahidə olunan məsələlərin həlli ilə bağlı RİH-nə müraciət edilsin.

**2.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri ilə rayon əhalisinin mütəmadi məlumatlandırılmasının vacibliyi diqqətdə saxlansın.

**İclasın sədri:** **Samir Həsənov**

**İclasın katibi:** **Aygül Zeynalov**